Kredo .- 2022.- 16 mart.- S.16.

# SÖZÜMÜZÜN POLKOVNİKİ

*Yazıçı Tahir Kazımovun ölümünə elegiya*



80 il əvvəl Cəbrayılın Soltanlı kəndində dünyaya gəlmişdi. Gidi dünya onu elə doğulan gündən qarabaqara izləməkdə, təqib etməkdə idi. Gözünü açanda bir kasıb daxmanın altında anası Xeyrənsəni, böyük qardaşı Qəzənfəri, bacısı Qərənfili görmüşdü. Atasının adı sənədlərdə Şirin qeyd olunsa da, ötən əsrin axırlarınacan soltanlılar onu Şirinkazım deyə xatırlayardılar. Şirinkazım müharibədən əvvəl Cəbrayıl maarifində işləyib. İndi də soltanlılar arasında Şirinkazımın düzlüyü, doğruluğu, həqiqətlərə sərt yanaşma ilə tabeliyi haqında rəvayətlər dolaşır.

Müharibənin ilk illərində kəndin kasıblarına yardımların paylanmağında Şirin əsas sima olub. Kimin nəyə ehtiyacı olduğunu bilib və bildiyinə də əməl edib. Hətta 50-ci illərdə də hansısa bir kasıbın payı kəsiləndə deyərmişlər ki, Şirin ayıran payı kəsmək, Allahsızlıqdır. Anası Xeyrənsə Şirinin mənəvi düsturunu övladlarının tərbiyəsində əsas götürmüşdü.

Tale elə gətirib ki, Qəzənfər Kazımov - Azərbaycanın görkəmli alimi, mənim müəllimim olub, Tahirlə də həyatın gətirdiyi qanunauyğunluqla dostluğumuz bünövrə tapıb. Bacıları Qərənfil xanım Cəbrayılda qonşumuz idi.

Bu 3 Azərbaycan ziyalısının, bir ailənin üç övladının bütün böyümə məsuliyyəti hamısı bir ananın üzərinə düşmüşdü. Və artıq qeyd etdiyim kimi böyük Ana da övladlarını ömür-gün həmdəmi, İkinci Cahan Savaşının qəhrəman zabiti Şirinkazımın qoyduğu yola yönəldə bilmişdi.

Tahirin ölüm xəbəri mənim ruhumdan, varlığımdan acı külək kimi keçdi. Axı onunla məni bağlayan yolların da başlanğıcı 40 ildən o tərəfə indi az qala unudulmaqda olan bir zamandan gəlirdi. Tahir bizim ailəyə elə o illərdən doğma olub. Qardaşım Əlibalaya da hələ Qaradağ rayonunda polis rəisinin müavini olduğu zamandan doğma və isti münasibət bəsləyirdi.

1986-cı ilin söhbətidir. Bir gün də Cəbayılda məni tapıb bir tədbirə dəvət etdi. 30 ildən sonra orta məktəbdə birgə oxuduğu sinif yoldaşlarının görüşünü təşkil etmişdi. Xudafərin kafesi... Soltanlıda Elbrus Əhmədoğlunun kafesində yığışmalı olduq. Sözün həqiqi mənasında rayonun mənəvi mühitində kifayət qədər tanınan adamlar cəmlənmişdi buraya. Yaxşı yadımdadır, Əjdər həkim çıxışında mənim tədbirdə iştirak etməyimə işarə ilə bu görüşün bir yaddaş yazısı olacağını da dedi və, əlbəttə, bunun üçün Tahir Kazımovun xidmətlərini yüksək dəyərləndirdi. Səyavuş Sərxanlı da, mən də - qonaq qismində iştirak etsək də, çıxış elədik. Söz yox, çıxışlarımızda Tahir Kazımovun hüquq-mühafizə orqanlarındakı dəyərli xidmətlərini qeyd etsək də, onun "Ulduz" jurnalının bünövrə daşını qoyanlardan biri olduğunu da unutmadıq. Həmin tədbir haqqında yazım "Xudafərin" qəzetində dərc olundu, sonralar bildim ki, Tahir Kazımov həmin qeydləri öz kitablarından birinə də daxil etmişdi. Sonra avtoqrafla "Qisas" adlı kitabını da verdi və həmin kitab haqqında "Qurd ağzından keçən yol" adlı bir yazı da qələmə aldım.Son illərəcən deyirdi ki, mənim haqqımda ilk yazını sən yazmısan.

Tahirin "Müsibət" romanı haqqında silsilə yazılar da yazdım. Ayrıayrı vaxtlarda əsərlərini oxuyub fikirlərimi bölüşürdüm. Xüsusilə söhbət hara hərlənsə də, atasının məktubları ilə bağlı povestinin haqqında təəssüratım həmişə təzələnirdi.

Tahir Kazımov çoxlu iri həcmli əsərlərin müəllifi idi. Xüsusilə ömrünün son illərində qələmə aldığı Azərbaycan tarixinin müharibə bahadırlarından və dövlətçilik sütunlarından biri kimi xatırlanan Uzun Həsən haqqında silsilə romanları ədəbiyyat salnaməmizin ən dəyərli nümunələri kimi həmişə oxunacaq yaşarı bir əsərdir.

Tahir Kazımov sağlam bir ailənin başçısı idi. Hüquq-mühaifzə orqanlarındakı xidməti ilə polkovnik rütbəsinəcən gəlib çatmışdı. ...Və mən ona həmişə ədəbiyyatımızın polkovniki deyirdim.

Dövlətimiz onu qüsursuz xidmətlərinə görə dəfələrlə təltif etmişdi. Ədəbiyyat, mədəniyyat tariximizdəki xidmətləri də unudulmamış, ona "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdi.

Oğlu Şirin Amerikada tibb təhsili almışdı və təhsil uğurlarına ABŞ prezidentinin fəxri mükafatına layiq görülmüşdü. Süleymana qalmayan dünya Tahiri də cismən saxlamadı, amma onun mənəvi həyatı Azərbaycan təbiəti ilə, türk ruhu ilə, Uzun Həsən ömrü ilə bundan sonra da davam edəcək.

Əbədiyyat sakini, ruhun aram olsun... Cəbrayılda adınla, sanınla, şöhrətinlə görüşənədək.

*Əli Rza* Xələfli
*15.03.2022*